# Qarabağın bərpası Azərbaycanın qüdrətini dünyaya nümayiş etdirir



*Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Prezident İlham Əliyevin işğaldan azad olunan rayonlara səfərləri bir daha göstərir ki, Azərbaycan dövləti düşməndən təmizlənən ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı tərəfindən hazırda erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməlinin qoyulması, tikinti işlərinin geniş vüsət alması, yüksək texnologiyaların tətbiqinə start verilməsi bunun bariz ifadəsidir.**

Yeri gəlmişkən, Prezident İlham Əliyevin mayın 28-də Ağdam şəhərinə səfəri çərçivəsində Bərdə-Ağdam avtomobil yolunun təməlinin qoyulması, eyni zamanda, gələcəkdə Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisinin nəzərdə tutulması Qarabağ və ətraf rayonlarda müasir tələblərə cavab verən yol infrastrukturunun yaradılacağından xəbər verir. Bu işlər, şübhəsiz ki, işğaldan azad edilən rayon və kəndlərimizin gələcək sosial-iqtisadi inkişafına, məskunlaşmanın tez bir zamanda gerçəkləşməsinə real zəmin yaradır.

Prezident İlham Əliyev Ağdam şəhərinə səfəri zamanı ictimaiyyət nümayəndələri ilə görüşündə bərpa-quruculuq layihələri ilə bağlı bir sıra məqamlara toxunub. Dövlətimizin başçısı Qarabağın və ətraf rayonların "ağıllı region" kimi inkişafı ilə əlaqədar qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə hər zaman xüsusi əhəmiyyət veriləcəyini vurğulayıb. Eyni zamanda, bu istiqamətdə işğaldan azad edilən ərazilərdə ekoloji cəhətdən təmiz, bərpaolunan enerji növlərinin yaradılması üçün geniş imkanların mövcudluğunu da bildirib.

Bu yerdə xatırladaq ki, Ağdamın Baş Planında yaşayış evlərinin salınması ilə yanaşı, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji kimi bir sıra zəruri sahələrin qurulması nəzərdə tutulub. Həmçinin şəhər daxilində 125 hektarlıq böyük bir meşə zolağı və süni gölün yaradılması, kanal və körpülərin inşası da gələcəkdə bütün Qarabağ bölgəsinin "yaşıl enerji" zonasına çevriləcəyini şərtləndirib.

Prezident İlham Əliyevin cari il aprelin 19-da imzaladığı "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" sərəncamı da məhz bu yeni layihənin səmərəli gerçəkləşdirilməsi məqsədi daşıyır. Sərəncamda qeyd olunur ki, müasir telekommunikasiya, sensor, "Böyükhəcmli məlumatlar" (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır.

Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Sərəncama əsasən, Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin rəhbərliyi ilə mötəbər tərkibdə İşçi qrupun yaradılması da ölkə Prezidentinin bu məsələyə nə qədər mühüm əhəmiyyət verdiyini təsdiq edir.

Son texnologiyaya və innovativ informasiya mühitinin qurulmasına əsaslanan, xüsusilə "ağıllı kənd" sistemi kənd ərazilərində uzaq məsafənin və əhali sıxlığının yaratdığı məkan maneələrini aşmağa şərait yaradacaq. Urbanizasiya səviyyəsinin yüksək olduğu yerlər ilə müqayisədə, kəndlər infrastruktura, xidmətlərə və bazarlara nisbətən aşağı çıxış imkanına malikdir və yüksək əhali sıxlığından irəli gələn aqlomerasiya faydaları və iqtisadi fəaliyyətin konsentrasiyası kimi üstünlüklərdən yararlana bilmirlər. İşğaldan azad edilmiş bölgələrimiz başda olmaqla, respublikamızın digər regionlarında da "ağıllı kənd" layihəsinin tətbiq edilməsi kənd yerlərinə yatırılan investisiyanın həcmini çoxaldacaq, texnoloji yeniliklərin köməyi ilə məhsuldarlıq və göstərilən sosial xidmətlərin çeşidliliyini artıracaq, yüksək sürətli fiberoptik internet və inkişaf etmiş rabitə xidmətlərinin əhatə dairəsini genişləndirəcək. Həmçinin bərpaolunan mənbələrindən istifadə edilməsi imkanları artacaq, ekoloji cəhətdən təhlükəsiz məhsulların istehsalında ciddi artım özünü göstərəcək.

Bəli, bu gün Prezident İlham Əliyevin "Qarabağda cənnət yaradacağıq" vədinin yerinə yetirilməsi istiqamətində nəzərdə tutulan layihələr sürətlə gerçəkləşdirilir. Prezident İlham Əliyevin Ağdama səfəri zamanı şəhərin Baş Planını ilə tanışlığı, Bərdə-Ağdam avtomobil yolunun, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Sənaye Parkının, Zəfər muzeyi və açıq hava altında İşğal muzeyinin, 1 saylı məktəbin yeni binasının təməlqoyma mərasimlərində iştirak etməsi, Şahbulaq qalasında, Qiyaslı məscidində, Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olması, bərpaları barədə göstərişlər verməsi dövlətimizin başçısının Qarabağa həm də Böyük Qayıdışın astanasında dayanılmasının bariz ifadəsidir.

Burada diqqəti bir məqama da yönəltmək istərdik. Dövlətimizin başçısı tərəfindən təməli qoyulan Ağdam Sənaye Parkı gələcəkdə Qarabağın yenidən qurulmasında mühüm rol oynayacaq. Burada iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı və tikinti materiallarının satışı bazasının yaradılması bölgənin iqtisadi inkişafını sürətləndirmək baxımından mühüm önəm daşıyacaq. Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, həmçinin soyuducu kameraların təşkili isə regionun aqrar sektorunun dirçəldilməsinə əsaslı təsir göstərəcək.

Bu gün təkcə Ağdamda deyil, eyni zamanda, işğaldan azad edilən digər ərazilərimizdə də genişmiqyaslı tikinti-quraşdırma işləri aparılır. Ərazilərin elektrik təchizatı istiqamətində geniş miqyaslı tədbirlər həyata keçirilir, həm xətlər çəkilir, həm də yeni yarımstansiyalar tikilir. Bu gün Şuşa şəhərinin elektrik enerjisi ilə təminatında heç bir problem yoxdur. İndi Daşkəsəndən Kəlbəcərə yeni ötürücü xətlər inşa edilir. Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər uğurla gedir. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Göygöl-Toğanalı-Kəlbəcər avtomobil yollarının tikintisi sürətlə aparılır. Bununla bərabər Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yolu infrastrukturu da yaradılmaqdadır. Bu yol Zəngəzur dəhlizinə qədər uzanacaq və artıq işlər cədvəl üzrə görülür.

Qarabağın su təsərrüfatı, meliorasiya sistemi demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir. Suqovuşan Hidroqovşağı və oradan su götürən Tərtərçay magistral kanalları işləksiz haldadır. Bütün bu infrastruktur obyektlərinin bərpası üçün Tədbirlər Proqramı hazırlanaraq, yaxın vaxtlarda icrasına başlanılması nəzərdə tutulur.

Düşməndən təmizlənən ərazilərdə infrastrukturun yenidən qurulması və əhalinin işlə təmin olunmasına dövlət investisiyası ilə yanaşı, yerli və xarici investisiya da cəlb edilir. Böyük quruculuq layihələrinə dost ölkələrin qoşulması siyasəti isə Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirir.

Füzuli Beynəlxalq Hava Limanının 2021-ci il sentyabr ayının sonunadək istifadəyə verilməsi planlaşdırılır. Bu hava limanının ümumi uzunluğu 4,8 kilometr təşkil edəcək, bunlardan üç kilometri uçuş-enmə zolağı, hər biri 900 metr olan işıqlandırma zonalarıdır. Bu gün hava limanının tikintisi ilə yanaşı, naviqasiya və digər avadanlıqların quraşdırılması işləri aparılır.

Avqustda başa çatdırılacağı nəzərdə tutulan "Zəfər yolu"nun bu hava limanına çıxışı olacaq. Bununla yanaşı, Zəngilanda hava limanının tikintisinə başlanılıb və Laçında da bu istiqamətdə layihənin reallaşdırılmasına başlanılması planlaşdırılır.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Türkiyənin nəqliyyat və infrastruktur nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, vurğuladığı kimi, İkinci Qarabağ savaşından sonra Azərbaycan yeni bir dəhliz– Zəngəzur dəhlizi üzərində iş aparır: "Bildiyiniz kimi, müharibədən sonra ilk mərhələdə Ermənistan bu məsələ ilə bağlı öz etirazını bildirmişdir. Ancaq son vaxtlar mənə məlumat verilir ki, Ermənistan tərəfi də artıq bu dəhlizin açılmaz olması ilə bağlı məsələləri düzgün təhlil edir. Bildiyiniz kimi, indi üçtərəfli çərçivədə müzakirələr aparılır. Azərbaycan, Rusiya, Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup çərçivəsində bu məsələ müzakirə edilir və yaxşı nəticələr də var.

Biz artıq azad edilmiş torpaqlarda Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verdik. Əminəm ki, yaxın iki il, bəlkə iki il yarım ərzində o dəmir yolu tam istismara veriləcəkdir.

Naxçıvan dəmir yolunun böyük hissəsi fəaliyyətdədir və çatışmayan hissə də inşa ediləcək, bütün təlimatlar verilib. Ermənistan ərazisində Zəngəzur dəhlizinin önəmli hissəsi inşa edilməlidir. Beləliklə, yeni bir dəhliz açılacaq və Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaqdır".

Xatırladaq ki, artıq Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verilib. Yaxın iki il, iki il yarım ərzində həmin dəmir yolunun tam istismara veriləcəyi nəzərdə tutulub.

Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun tikintisinin isə 2023-cü ilin iyun ayında başa çatdırılacağı planlaşdırılıb. Bu barədə "Kalyon Holding"in Azərbaycandakı layihə rəhbəri Nihat Yıldırım bildirib. O deyib ki, Azərbaycanın erməni işğalından azad edilən bölgələrində mühüm layihələrin həyata keçirilməsi "Kalyon Holding"ə həvalə edilib. Bu layihələrdən biri Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, digəri isə Horadiz-Mincivan-Ağbənd dəmir yoludur. Avtomobil yolu 124 kilometr, dəmir yolu 114 kilometrdir. Hər iki yol Araz çayı boyunca Ermənistan sərhədinə qədər uzanacaq. Bu yol Ermənistan tərəfindən inşa olunacaq əlavə yolla və Naxçıvanın içərisindən keçən 170 kilometrlik yollarla İğdırdan Bakıya birbaşa ən əhəmiyyətli ticarət və turizm yolu olacaq.

"Qarşımıza çıxa biləcək ən əsas problem ərazidəki minaların təmizlənməsidir. Buna görə də ərazinin minalardan təmizlənməsi bizim üçün çox vacibdir. Bu yolun inşası zamanı heç bir işçimizin zərər görməsini istəmirik. Mina təmizlənməsi bitdikdən sonra bütün əməkdaşlarımızla yolun ən tez zamanda bitməsi üçün çalışacağıq", - N.Yıldırım vurğulayıb.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 2 iyun.- S.1.